UOT: 330.341.1
JEL: D 450

MƏMMƏDZADƏ M. E.,
Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun dissertantı
E-mail: m.mammadzada.92@gmail.com

LİSENZİYALAŞDIRMA İLƏ BAĞLI QANUNVERİCİLİKDƏKİ DƏYİŞİKLIKLƏRİN "LİSENZİYALAŞDIRMA SUB-İNDEKSİNDƏ" İNİKASI

Xülasə

Tədqiqatın məqsədi: Lisenziyalaşdırma sahəsində aparılan islahatların Lisenziyalaşdırma Sub-indeksinə təsirini qiymətləndirmək

Tədqiqatın metodu: Müqayisəli təhlil, sistemli yanaşma

Tədqiqatın nəticəsi: Lisenziyalaşdırmanın asanlığı iqtisadiyyata dövlət müdaxiləsini azaldır və ölkə iqtisadiyyatını sağlaşdırır, ölkədə biznes mühitinə müsbət təsir edir, sahibkarları daha keyfiyyətli işə stimullaşdırır, qeyri-formal ödənişlərin qarşısını alır, nəticədə iqtisadi artıma öz müsbət təsirini göstərir.

Açar sözlər: *liberallıq, lisenziyalaşdırma, İqtisadiyyatın Sağlığı (Solluğu) İndeksi, Lisenziyalaşdırma Sub-indeksi, qanunvericilik*

GİRİŞ

Lisenziya (latıncadan licentia – icazə) – hansısa konkret iqtisadi fəaliyyət növünü həyata keçirmək üçün dövlətin şirkətlərə və fərdi sahibkarlara rəsmi sənəd şəklində verdiyi xüsusi razılıqdır.

Lisenziya ilə icazəni bir-birindən fərqləndirmək araşdırmanın düzgün istiqamətdə davam etməsində xüsusi əhəmiyyət daşıyır. Belə ki, lisenziya əsas və davamlı biznes fəaliyyətinə başlamaq üçün səlahiyyət vermək xüsusiyyətini daşıdığı halda, icazə böyük bir fəaliyyətin yalnız bir mərhələsini tamamlamağa səlahiyyət vermək xüsusiyyətinə malikdir. Səlahiyyət dairəsinə görə lisenziya milli, icazə isə yerli və ya bələdiyyə (bəzi xüsusi hallarda milli) səviyyəsindədir.

Lisenziyalaşdırma fəaliyyətinin həyata keçirilməsini zəruri edən başlıca iki səbəb – ölkənin ictimai maraqlarını qorumaq və məhdud təbii resurslardan səmərəli istifadəni təmin etməkdir.

İqtisadiyyatın dövlət tərəfindən texniki tənzimlənməsi alətlərindən olan lisenziya və icazələr keyfiyyətə nəzarət proseduru üçün ilkin mexanizm rolunu oynayır. Elə iqtisadi fəaliyyət növləri vardır ki, onların dövlət tərəfindən tənzimlənməsi əhalinin sağlamlığını və təhlükəsizliyini qorumaq baxımından zəruridir. Belə fəaliyyət növlərinin müəyyən standartlara cavab verməsi vacibdir və bu uyğunluğun yoxlanılması hər bir ölkənin qanunvericiliyinə uyğun olaraq dəyişir.

Hər bir ölkədə lisenziyalaşdırma fəaliyyəti həmin ölkənin Qanunvericiliyi və bu ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit olunur. Lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunundan, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Bu araşdırmanın əsas məqsədi Azərbaycanda lisenziyalaşdırma sahəsində aparılan islahatlardan sonra bu ölkənin Lisenziyalaşdırma Sub-indeksindəki dəyişimi tapmaqdır.

Məqalədə son dövrdə Azərbaycanda lisenziyalaşdırma sahəsində aparılan islahatların qanunvericilik bazasının təkmilləşməsinə, ölkədə lisenziya almaq prosedurunun asanlaşmasına, biznes mühitinə və nəticədə ölkəmizin lisenziyalaşma sub-indeksinin dəyişməsinə təsirinin qiymətləndirilməsi, həmçinin digər dövlətlərlə müqayisəli təhlili öz əksini tapmışdır.

Problemin öyrənilməsi müxtəlif ədəbiyyatlarda. Hall və Jones (1999)və Acemoglu (2001) və başqaları qeyd edirlər ki, institutlar uzunmüddətli böyümənin və rifahın əsas determinantlarıdır. Keçmişdə daha yaxşı siyasi və iqtisadi qurumları olan ölkələr indi daha zəngindir.

Son illər tənzimləmənin keyfiyyəti və miqdarı arasındakı əlaqə – tənzimləmənin inzibati yükü (ağırlığı) və iqtisadi artım – siyasətçilərin və elm adamlarının böyük marağındadır. Empirik tədqiqatlar göstərir ki, institusional keyfiyyət uzunmüddətli iqtisadi artım üçün vacibdir (Cherchye, 2003; Glaeser, La Porta, Lopez-de-Silanes & Shleifer, 2004, North, 1990). Son zamanlar biznes qaydalarının keyfiyyəti institusional keyfiyyətin proqnozu kimi təqdim edilmişdir (Büttner, 2006, Djankov, McLiesh, Ramalho, 2006, Jalilian, Kirkpatrick & Parker, 2007; Nicoletti & Scarpetta, 2003). Eyni zamanda, bürokratiya və dövlət tənzimlənməsinin digər formaları özü iqtisadi artım və səmərəliliyə real maneə ola bilər.

Dawson (2007) həm ümumi tənzimləmə tədbirlərinin, həm də tənzimlənmənin bəzi spesifik sahələrinin makroiqtisadi performansla əlaqəli olduğunu təsbit edir.

Lisenziyalaşdırma şirkətlərin və fərdi sahibkarların fəaliyyət azadlığını məhdudlaşdırsa da, onun məqsədi, əlbəttə, bu deyil – vətəndaşların sağlamlığı və hüquqları, dövlətin təhlükəsizliyi və maraqları üçün potensial təhlükələrin qarşısını qabaqcadan almaqdır. Lakin potensial təhlükələrin konkret olaraq hansı iqtisadi fəaliyyət növlərindən törəndiyi haqqında təsəvvürlər çox müxtəlifdir. Sağçılar və solçular arasındakı ziddiyyət məhz bundan qaynaqlanır. Bir qayda olaraq, sağçılar lisenziyalaşdırılan fəaliyyət növləri siyahısının kiçildilməsinə (iş adamlarına daha böyük sərbəstlik verilməsinə), solçular isə genişləndirilməsinə (dövlətin və vətəndaşların hüquqlarını daha sərt müdafiə etməyə) tərəfdar çıxırlar (Müzəffərli 2014).

Lisenziyalaşdırmanın sadələşdirilməsi dövlətin iqtisadiyyata müdaxiləsini azaldır, şirkətlərin və fərdi sahibkarların iqtisadi sərbəstliyini artırır və iqtisadiyyatı sağa doğru çəkir. Onun sərtləşdirilməsi isə iqtisadiyyata dövlət müdaxiləsini gücləndirir və onu sollaşdırır. Bunlar birmənalıdır. Birmənalı olmayan – lisenziyalaşdırmanın sərtləşdirilməyi ilə əldə edilən sosial nəticələrdir. Dünya təcrübəsi açıq şəkildə göstərir ki, bəzi dövlətlərin lisenziyalarla qorumağa çalışdığı ictimai maraqları bir çox hallarda bunlarsız da təmin etmək mümkündür. Ona görə də imkan olduqca lisenziyalaşdırılan iqtisadi fəaliyyət sahələrinin çevrəsini daraltmağa çalışmaq lazımdır (Müzəffərli 2014).

Azərbaycanda lisenziyalaşdırma: hüquqi çərçivə. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktı, «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında» Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının Qanunu, bu Qanun və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir (Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, BölməI, Maddə 2).

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir. Xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyət növlərinin siyahısı və xüsusi razılıq (lisenziya) verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur (Bölmə III, Maddə 11).

Azərbaycanda lisenziyalaşdırma sistemi əsasən aşağıdakı hüquqi sənədlərlə tənzimlənir:

- "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli, 782 saylı Fərmanı;
- "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli, 174 saylı Qərarı.

Bu hüquqi aktların qəbulu ümumilikdə lisenziyalaşdırma sisteminin optimallaşdırılması üçün irəliyə doğru əhəmiyyətli addım idi. Belə ki, Lisenziyalaşdırma qaydaları aşağıdakı məsələləri tənzimləyir:

- Bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılması üçün ümumi qaydaları;
- Lisenziyaların verilməsi prosedurlarını;
- Lisenziyaların fəaliyyət müddətini;
- Lisenziyanın alınması üçün ərizəyə baxılması müddətini;
- Lisenziyanın fəaliyyətinin dayandırılması və ləğv edilməsi prosedurlarını;

- Lisenziyalaşdırılan fəaliyyət növlərinin siyahısını;
- Lisenziya verən dövlət təşkilatlarının siyahısını;
- Lisenziya almaq üçün dövlət rüsumunun məbləğini.

Azərbaycan Respublikası Prezidentinin "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" 2002-ci ildə imzaladığı Fərmana əsasən, ölkədə 59 sahibkarlıq fəaliyyət növü və 107 alt fəaliyyət növü lisenziyalaşdırılan fəaliyyət növlərinə aid edilmişdir.

Azərbaycanda lisenziyalaşdırma sahəsində dövlət siyasəti: islahatlar. Azərbaycanda lisenziyalaşdırma sahəsində əsas islahat 2002-ci ildə qəbul edilən və bəzi fəaliyyət sahələrinə lisenziyaların verilməsini tənzimləyən fərman hesab edilə bilər. Çünki, bu sənədlə həm lisenziyaların müddətləri uzadıldı, həm də lisenziyalaşdırılan fəaliyyət sahələrinin sayı bir xeyli azaldıldı. Lakin, 2002-2012-ci illərdə hökümət tədricən lisenziyalaşdırılan fəaliyyət sahələrinin sayını artırdı.

2014-cü ilin mart ayında Prezident "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər" haqqında fərman imzaladı. Burada məqsəd Dünya Bankının Biznes Fəaliyyəti hesabatına müvafiq sahələrdə (başqa sözlə, biznesin qeydiyyatı, tikinti üçün icazə, bizneslərin elektrik şəbəkəsinə qoşulması, əmlak qeydiyyatı, korporativ idarəetmə, idxal-ixrac prosedurları və müflislik haqqında qanunvericilik) biznes qaydalarının sadələşdirilməsi və təkrar nəzərdən keçirilməsidir.

Həmin islahatların davamı olaraq, 2015-ci ildə Azərbaycan Prezidenti "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi haqqında" Fərman imzaladı. Fərmana uyğun olaraq, sahibkarlıq fəaliyyətinin xüsusi icazə tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar fəaliyyət növləri istisna olmaqla) lisenzi-yaların verilməsi İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində təmin olundu. Sahibkarların vaxt itkisi və əlavə sənədləşmə problemləri ilə qarşılaşmamaları üçün lisenziyalaşdırma prosedurlarına dair məsləhət xidmətləri də təklif olundu. 2015-ci il noyabrın 2-dən etibarən isə İqtisadiyyat Nazirliyinin əməkdaşları tərəfindən "ASAN xidmət" mərkəzlərində lisenziyalarla bağlı ərizələrin qəbuluna başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2011-ci il tarixli 509 nömrəli Fərmanına uyğun olaraq, İcazələrin elektron informasiya portalı yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 15 mart 2016-cı ildə təsdiqlənmiş "Lisenziyalar və icazələr haqqında" qanun Azərbaycanda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı (maliyyə bazarlarındakı sahibkarlıq istisna olmaqla) lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir (Lisenziyalar və icazələr haqqında AR Qanunu, 2016).

2016-cı il iyunun 1-dən qüvvəyə minmiş Qanuna əsasən, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayı 330-dan 87-ə endirilmişdir.

Hazırda 25 sahibkarlıq fəaliyyəti növü üzrə lisenziyalar İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə verilir. Bütün fəaliyyət növləri üçün lisenziyalar müddətsizdir. 2 noyabr 2015-ci il tarixindən 1 sentyabr 2016-cı il tarixinə qədər İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə sahibkarlıq subyektlərinə 2734 lisenziya verilmişdir. Bu lisenziyaların 2415-i Bakı şəhərinin, 319-u isə regionların payına düşür. (Hesabat, 2016)

Azərbaycan həmçinin dövlət müəssisələrində şəffaflığı və cavabdehliyi artırmaq, siyasətin formalaşdırılmasına ictimaiyyətin iştirakını artırmaq məqsədilə 2012-2015-ci illər üçün Açıq Hökumətin təşviqinə və korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planları hazırlamışdır. Onlara biznes mühitinin təkmilləşdirilməsinə dair ayrıca bölmə daxildir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr, 2016-cı il tarixli fərmanı əsasında "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik – idarə et – təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar

qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"ı təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 İyul, 2016 tarixli sərəncamı ilə "Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üzrə Dövlət Komissiyası" yaradılmışdır. Bu isə ölkədə biznes və investisiya mühitinin yerli və xarici investorlar üçün əlverişliliyini artırmaq, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması baxımından olduqca vacibdir.

Lisenziyalaşdırma sub-indeksi haqqında. AMEA İqtisadiyyat İnstitutunda 2014-cü ildən aparılan tədqiqatlardan olan İqtisadiyyatın Sağlıq (Solluq) İndeksinin 6 sub-indeksindən biri məhz Lisenziyalaşdırma sub-indeksidir. Bu İndeks lisenziyalaşdırma sahəsində iqtisadiyyatın dövlət tənzimləməsinin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatının liberal (sağçı) yoxsa dirijist (solçu) mövqedə olmasını ölçməyə imkan verir.

Lisenziyalaşdırma sub-indeksinin hesablanması zamanı dörd parametri nəzərə almaq lazımdır: a) lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı; b) lisenziyalaşdırılan fəaliyyət növlərinin çeşidi; c) lisenziyaların keçərlilik müddəti; ç) lisenziyaların verilmə qaydaları. Bu göstəricilər iş sahibləri üçün nə qədər əlverişlidirsə (yəni say azdırsa, çeşid məhduddursa, müddət uzundursa və qaydalar sadədirsə), iqtisadiyyat bir o qədər daha sağdadır.

Lisenziyalaşdırma sub-indeksi Dünya Bankının Doing Business tərəfindən tədqiq edilən "Tikinti üçün icazə alınması" indikatoruna əsasən hesablanır. Burada vaxt və xərc (bunu hipotetik şirkət tikinti ilə bağlı lazım olan lisenziya və icazəni əldə etmək üçün sərf edir) amilləri üzrə göstəricilərdən istifadə edilir.

Vaxt (V) və xərc (X) indikatorları (Vi - Vmin)/(Vmax - Vmin) düsturu ilə 0-1 aralığına gətirilir. Sub-indeks bu 2 göstəricinin cəbri ortasıdır.

$$L=(V+X)/2$$

Aşağıdakı cədvəldə İqtisadiyyatın Sağlıq (Solluq) İndeksi metodologiyasına uyğun olaraq 99 ölkədə lisenziyalaşdırma proseduruna sərf olunan vaxt və xərc göstəricilərinə əsasən Lisenziyalaşdırma sub-indeksləri hesablanmışdır. Cədvəldə ölkələr indeksin 0-1 aralığında artan sıra ilə düzülmüşdür. (Cədvəl 1.)

Cədvəldən də göründüyü kimi Lisenziyalaşdırma sub-indeksinin aldığı qiymətə əsasən 99 ölkənin sıralanmasında ilk yerdə Sinqapur, ən sonda isə Kamboca yer alır. Bu ondan qaynaqlanır ki, Sinqapurda hər hansı bir hipotetik tikinti şirkətindən lisenziya əldə etmək üçün maksimum 26 gün və anbar dəyərinin 0,3%-i qədər xərc tələb olunur. Kambocada isə 652 gün və anbar dəyərinin 6,2%-i qədər xərc tələb olunur.

Təhlil qrupu ölkələri içərisində lisenziya alınmasına ən çox vaxt sərf olunan ölkə Kamboca (652), ən çox xərc tələb olunan ölkə isə Madaqaskardır (anbar dəyərinin 30,8%-i).

Azərbaycan və ona qonşu olan ölkələr arasında isə lisenziya alınmasına ən çox vaxt sərf olunan ölkə Rusiya (263,5 gün), ən çox xərc tələb olunan ölkə isə Azərbaycandır (anbar dəyərinin 4,1 %-i). Bu ölkələr içərisində ən az vaxt (48 gün) və ən az xərc (anbar dəyərinin 0.2 %-i) tələb olunan ölkə Gürcüstandır.

Cədvəl 1-in daha aydın ifadəsi Şkala 1. -də öz əksini tapmışdır.

Şkalada 99 ölkənin Lisenziyalaşdırmanın sağlıq (solluq) indeksi üzrə düzümündə Nepal (0,085) nisbi mərkəzdə durur. Sıralamada Azərbaycan (0,122) və Rusiya (0,140) nisbi mərkəzdən solda yerləşirlər. Bu isə Azərbaycan və Rusiyada lisenziyalaşdırma sahəsində dövlət müdaxiləsinin nisbi mərkəzin sağ qütbündə yerləşən ölkələrdən daha sərt olduğunu göstərir. Nisbi mərkəzin sağında isə Türkiyə (0,069), İran (0,059), Ermənistan (0,047), Gürcüstan (0,025) yerləşir. Bu ölkələrin lisenziyalaşdırma sahəsindəki dövlət tənzimlənməsi sol qütbdəki ölkələrə nəzərən daha liberaldır. Şkalanın ən sağ qütbündə Sinqapur (0,0145), ən sol qütbündə isə Kamboca (0,357) yerləşir. Bu o deməkdir ki, 99 ölkə üzrə lisenziyalaşdırma fəaliyyətin ən liberal olduğu ölkə Sinqapur, ən dirijist ölkə isə Kambocadır.

Cədvəl №1.

Lisenziyalaşdırma Sub-indeksi 2016 (təhlil qrupu ölkələri)

№	Ölkələr	Vaxt (gün)	Xərc (anbar dəyərinin %-i)	Alt-indeks	Alt-indeks	Sub-indeks
		V	X	V	X	LI
1.	Sinqapur	26	0,3	0,026	0,003	0,015
2.	BƏƏ	43,5	0,2	0,044	0,002	0,023
3.	Gürcüstan	48	0,2	0,048	0,002	0,025
4.	Qətər	57	0	0,057	0	0,029
5.	Koreya Respublikası	28	4,3	0,028	0,043	0,036
6.	Finlandiya	64	0,8	0,064	0,008	0,036
7.	Danimarka	64	1,8	0,064	0,018	0,041
8.	İslandiya	84	0,4	0,084	0,004	0,044
9.	ABŞ	80,6	1	0,081	0,01	0,045
10.	Malayziya	79	1,4	0,079	0,014	0,047
11.	Ermənistan	84	1	0,084	0,01	0,047
12.	Tayvan	93	0,4	0,093	0,004	0,049
13.	Estoniya	102	0,2	0,102	0,002	0,052
14.	Tailand	103	0,1	0,103	0,001	0,052
15.	Litva	103	0,3	0,103	0,003	0,053
16.	Almaniya	96	1,1	0,096	0,011	0,054
17.	Filippin	98	1,1	0,098	0,011	0,055
18.	Səudiyyə Ərəbistanı	106	0,4	0,106	0,004	0,055
19.	Yeni Zelandiya	93	1,8	0,093	0,018	0,056
20.	Böyük Britaniya	105	1,1	0,105	0,011	0,058
21.	Norveç	110,5	0,6	0,111	0,006	0,058
22.	Avstraliya	112	0,5	0,112	0,005	0,059
23.	Tunis	93	2,5	0,093	0,025	0,059
24.	İran	97	2,1	0,097	0,021	0,059
25.	Sri-Lanka	116	0,2	0,116	0,002	0,059
29.	Paraqvay	120	0,7	0,12	0,007	0,064
30.	Makedoniya	74	5,4	0,074	0,054	0,064
31.	Mərakeş	91	3,7	0,091	0,037	0,064
32.	İsveç	116	2,2	0,116	0,022	0,069
33.	Monqolustan	137	0,1	0,137	0,001	0,069


№	Ölkələr	Vaxt (gün)	Xərc (anbar dəyərinin %-i)	Alt-indeks	Alt-indeks	Sub-indeks
		V	X	V	X	LI
34.	Türkiyə	103	3,6	0,103	0,036	0,07
35.	Yunanıstan	124	1,8	0,124	0,018	0,071
36.	Kolumbiya	73	7,2	0,073	0,072	0,073
37.	Bəhreyn	145	0,2	0,145	0,002	0,074
38.	Bolqarıstan	110	4,1	0,11	0,041	0,076
39.	CAR	141	1	0,141	0,01	0,076
40.	İordaniya	63	9,1	0,063	0,091	0,077
41.	Çili	152	0,6	0,152	0,006	0,079
42.	Polşa	156	0,3	0,156	0,003	0,08
43.	Qırğızıstan	142	1,9	0,142	0,019	0,081
44.	İsveçrə	156	0,7	0,156	0,007	0,082
45.	Lüksemburq	157	0,7	0,157	0,007	0,082
46.	Malavi	153	1,1	0,153	0,011	0,082
47.	Oman	157	0,9	0,157	0,009	0,083
48.	Qazaxıstan	154	1,4	0,154	0,014	0,084
49.	Latviya	165	0,3	0,165	0,003	0,084
50.	Nepal	86	8,3	0,086	0,083	0,085
51.	Vyetnam	166	0,8	0,166	0,008	0,087
52.	Peru	174	0,5	0,174	0,005	0,09
53.	Macarıstan	179	0,2	0,179	0,002	0,091
54.	Meksika	86,4	10,2	0,086	0,102	0,094
55.	Malta	167	2,7	0,167	0,027	0,097
56.	Misir	179	1,7	0,179	0,017	0,098
57.	Niderland	161	3,7	0,161	0,037	0,099
58.	Dominikan	184	1,8	0,184	0,018	0,101
62.	Xorvatiya	128	8,8	0,128	0,088	0,108
63.	Küveyt	216	0,3	0,216	0,003	0,11
64.	Ukrayna	67	15,2	0,067	0,152	0,11
65.	Belçika	212	1	0,212	0,01	0,111
66.	İsrail	209	1,6	0,209	0,016	0,113

№	Ölkələr	Vaxt (gün)	Xərc (anbar dəyərinin %-i)	Alt-indeks	Alt-indeks	Sub-indeks
		V	X	V	X	LI
67.	Fransa	183	4,7	0,183	0,047	0,115
68.	Qana	216	1,9	0,216	0,019	0,118
69.	Avstriya	223	1,3	0,223	0,013	0,118
70.	Azərbaycan	203	4,1	0,203	0,041	0,122
71.	İndoneziya	210,2	3,8	0,21	0,038	0,124
72.	Çexiya	247	0,3	0,247	0,003	0,125
73.	Sloveniya	224,5	2,7	0,225	0,027	0,126
74.	Uqanda	159	9,6	0,159	0,096	0,128
75.	İspaniya	205	5,2	0,205	0,052	0,129
76.	Albaniya	228	3,3	0,228	0,033	0,131
77.	Kanada	249	1,3	0,249	0,013	0,131
78.	Uruqvay	251	1,2	0,251	0,012	0,132
79.	İtaliya	227,5	3,6	0,228	0,036	0,132
80.	Tacikistan	242	2,2	0,242	0,022	0,132
81.	Monteneqro	154	11,9	0,154	0,119	0,137
82.	Rusiya	263,5	1,6	0,264	0,016	0,14
83.	Rumıniya	257	2,3	0,257	0,023	0,14
84.	Pakistan	250,4	3,2	0,25	0,032	0,141
85.	Moldova	276	0,7	0,276	0,007	0,142
86.	Banqladeş	269	1,7	0,269	0,017	0,143
87.	Slovakiya	286	0,1	0,286	0,001	0,144
88.	Livan	244	4,4	0,244	0,044	0,144
89.	Serbiya	272	3,6	0,272	0,036	0,154
90.	Çin	244,3	7,2	0,244	0,072	0,158
91.	Nigeriya	106,3	24,4	0,106	0,244	0,175
				0,341	0,026	0,184
				0,179	0,193	0,186
				0,381	0,011	0,196
95.	Braziliya	425,7	0,4	0,426	0,004	0,215
96.	Hindistan	191,5	26	0,192	0,26	0,226
97.	Madaqaskar	185	30,8	0,185	0,308	0,247
98.	Kipr	617	1,1	0,617	0,011	0,314
99.	Kamboca	652	6,2	0,652	0,062	0,357

Mənbə: *Doing Buissness, Dealing with Construction Permits http://www.doingbusiness.org/Custom-Query (son baxılma oktyabr,2017)*

Şkala №1.


Lisenziyalaşdırma sub-indeksi (99 ölkə üzrə)



Şkaladan aydın şəkildə görünür ki, Azərbaycan və ona qonşu olan dövlətlər içərisində sağa ən çox meyilli olan Gürcüstan, sola ən çox meyilli olan isə Rusiyadır. Azərbaycan da daxil olmaqla digər ölkələr ümumilikdə sağa meyillidir. Lakin, müəyyən illərdə indeksdə artıb azalmalar müşahidə edilir. Bir ilin göstəricisinə əsaslanaraq hansısa ölkənin liberal yaxud dirijist iqtisadiyata meyl etdiyini demək reallığı bir o qədər aydın əks etdirmir. Bu səbəbdən Azərbaycan və ona qonşu olan ölkələrin 10 illik göstəriciləri əsasında lisenziyalaşdırma sub-indekslərinin illər üzrə artma-azalma dinamikasını vizual olaraq daha aydın görmək üçün aşağıdakı diaqramdan istidadə edək (Diaqram 1.).

Diaqram №1.

Lisenziyalaşdırma sub-indeksi(təhlil qrupu ölkələri 2007-2017)



	Azərbaycan	Rusiya	Gürcüstan	Ermənistan	Türkiyə	İran
2007	0,204	0,385	0,059	0,135	0,122	0,265
2008	0,178	0,376	0,056	0,094	0,125	0,262
2009	0,152	0,363	0,055	0,089	0,107	0,249
2010	0,140	0,323	0,037	0,083	0,105	0,083
2011	0,143	0,271	0,037	0,084	0,105	0,084
2012	0,139	0,238	0,037	0,048	0,096	0,083
2013	0,136	0,169	0,029	0,049	0,083	0,074
2014	0,139	0,153	0,028	0,049	0,074	0,071
2015	0,109	0,135	0,028	0,048	0,072	0,076
2016	0,122	0,130	0,025	0,047	0,070	0,060
2017	0,124	0,127	0,025	0,047	0,069	0,058

Mənbə: http://www.doingbusiness.org/Custom-Query (son baxılma oktyabr 2017)

Diaqramdan da göründüyü kimi illər ərzində göstəricilərin qiymətcə vahidə ən çox yaxınlaşdığı ölkə Rusiyadır. İllər ərzində lisenziyalaşdırma sub-indeksində kəskin dəyişmə baş verən ölkə Rusiya, İran, Ermənistan və Azərbaycandır. Türkiyə və Gürcüstanın indeksi isə 0-a yaxın qiymətlər arasında dəyişib.


2016-cı ildə ölkə rezidentləri tərəfindən 59987,7 milyon manatlıq və ya 2015-ci ildəkindən 3,8 faiz az ümumi daxili məhsul istehsal edil-

mişdir ki, bu azalmanın əsas səbəbi tikinti sektorunda əlavə dəyərin 2015-ci ilə nisbətən 27,6 faiz azalması ilə bağlıdır.

Azərbaycanda tikintiyə lisenziyanın verilmə müddəti 2016, 2017-ci illərin (203 gün) 2015-ci il (175 gün) ilə müqayisədə 28 gün artırılmışdır. Bu səbəbdən Azərbaycanın lisenziyalaşdırma sub-indeksində 2015-2017-ci illər ərzində 0.015 geriləmə yaranmışdır. Sub-indeksdəki bu geriləmə ilə ölkədə tikinti sektorunda əlavə dəyərin azalması ilə birbaşa əlaqəsi olmasa da, dolayı asılılıq var. (Diaqram 2.)

Diaqram №2.

Lisenziyalaşdırma sub-indeksi ilə tikinti sektorunda yaranmış əlavə dəyərin ÜDM-dəki payı arasındakı əlaqə



Hazırda lisenziyalaşdırmanın asanlığına görə Azərbaycan iqtisadiyyatı Cədvəl 1.-də sıralanan 69 ölkənin iqtisadiyyatından solda, 29 ölkənin-kindən isə sağdadır. Azərbaycanın daha çox solda olmasının səbəbi lisenziyalaşdırma sahəsində aparılan islahatların məhz son illərdə olması nəticəsində bu islahatların təsirinin Dünya Bankının "Doing Buissnes" hesabatlarına hələ tam yansımaması ilə bağlıdır.

NƏTİCƏ

1. İS(S)İ-2016 lisenziyalaşdırma sub-indeksinə əsasən 99 dünya ölkəsinin içərisində Azərbaycan 70-ci yerdədir. Azərbaycanın 70-ci yerdə durmasının və İS(S)İ şkalasında nisbi mərkəzdən solda olmasının səbəbi onun solçu olması ilə deyil, Azərbaycana nəzərən 69 ölkənin sağçı mövqeyə malik olması ilə bağlıdır.

2. 2007-2017-ci illər ərzində Azərbaycanda lisenziyalaşdırma sub-indeksin qiymətində kiçilmə baş vermişdir ki, bu da ölkənin ümumən sağlaşması deməkdir.

3. Lisenziyalaşdırma sub-indeksində 2007-2015-ci illərdə daimi azalma müşahidə olunur. Lakin, 2016, 2017-ci illərin göstəricisində isə cüzi artım baş vermişdir. Bunun səbəbi isə son iki ildə aparılan islahatların nəticələrinin Doing Buissnes hesabatlarına yansımasının gecikməsidir. Çünki, Doing Buissnes hesabatlarında göstəricilər iki il yubanma ilə verilir.

4. Doing Buissnesdə iki illik gecikmənin olduğunu nəzərə alaraq, deyə bilərik ki, 2016-cı ildə lisenziyalaşdırma sahəsində aparılan liberal-iqtisadi islahatların nəticəsi özünü lisenziyalaşdırma sub-indeksinin 2018, 2019-cu illərdəki göstəricilərində biruzə verəcək.

5. Lisenziyalaşdırmanın asanlığı (keçərlilik müddətinin uzun olması, az xərc tələb etməsi, lisenziyanın alınmasına sərf edilən vaxtın az olması) ölkədə biznes mühitinə müsbət təsir edir, sahibkarları daha keyfiyyətli işə stimullaşdırır, qeyri-formal ödənişlərin qarşısını alır, nəticədə iqtisadi artıma öz müsbət təsirini göstərir.

ƏDƏBİYYAT SİYAHISI

1. Aslanlı K. Lisenziyalaşdırma fəaliyyəti: Beynəlxalq təcrübə və Azərbaycan reallığı – Bakı 2013.

2. İS(S)İ (2015). İqtisadiyyatın solluğu (sağlığı) indeksi – 2015: 62 ölkədə dövlətin iqtisa-diyyatı tənzimləməsi səviyyəsinin qiymətləndirilməsi. – AMEA İqtisadiyyat İnstitutu, Bakı, 2016

[http://www.economics.com.az; son baxılma – oktyabr 2017]

3. Kiçik biznes akt; ölkə profili: Azərbaycan KOS siyasəti indeksi şərq tərəfdaşliği ölkələri 2016 pdf,

[https://www.oecd.org/globalrelations/Azerbaijan_aze.pdf – son baxılma sentyabr 2017]

4. Müzəffərli, N.İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. – "Şərq-Qərb" Nəş-riyyat Evi, Bakı, 2014

5. Hesabat (2016). Sahibkarlığın dövlət tənzimlənməsi sahəsində şəffaflıq prinsipi əsasında lisenziyaların verilməsi və icazələrin qeydiyyatı proseduralarını əhatə edən tənzimləyici çərçivənin təkmilləşdirilməsinə dair Hesabat. – AR İqtisadiyyat Nazirliyinin rəsmi İnternet saytı [http://www.economy.gov.az; son baxılma – dekabr 2016]

6. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

7. Acemoglu, Daron, Simon Johnson, and James A. Robinson, 2001, "The Colonial Origins of Comparative Development: an Empirical Investigation, American Economic Review 91(5), 1369-1401.

8. Dawson, J.W. (2007). Regulation and the Macro-economy. Kyklos 60(1), 15-36. [http://dx.doi.org/10.1111/j.1467-6435.2007.00357.x – son baxılma sentyabr 2017]

9. Doing Business (2006-2017). – The World Bank [http://www.doingbusiness.org; son baxılma – oktyabr 2017]

10. La Porta, Rafael, Florencio Lopez-de-Silanes, Andrei Shleifer and Robert Vishny, 1998, "Law and Finance", Journal of Political Economy, 106 (6), 1113-1155.

http://faculty.som.yale.edu/zhiwuchen/Emerging-Markets/LawAndFinance.pdf – son baxılma sentyabr 2017]

11. Simeon Djankov, Caralee McLiesh, Rita Ramalhol The World Bank March 17, 2006 [https://www.enterprisesurveys.org/~/media/GIAWB/EnterpriseSurveys/Documents/Research-Papers/Regulation-and-Growth-2006.pdf – son baxılma sentyabr 2017]

Маммадзаде М.Е., диссертант
Институт Экономики НАНА
E-mail: m.mammadzada.92@gmail.com

Отражение изменения законодательства на субиндексе «лицензирования»

Резюме

Цель исследования – Оценить влияние реформ лицензирования на субиндекс лицензирования

Методология исследования – системный подход и сравнительный анализ

Результаты исследования - Простота лицензирования сводит к минимуму вмешательство государства в экономику и улучшает экономику страны, влияет на бизнес-среду в стране, поощряет предпринимателей работать лучше, предотвращает неофициальные платежи, что положительно сказывается на экономическом росте.

Ключевые слова - *либерализация, лицензирование, Индекс Левизны (Правизны) Экономики, Субиндекс лицензирования, законодательство.*

Mammadzadeh M.E., dissertant
Azerbaijan National Academy of Science The Institute of Economics
E-mail: m.mammadzada.92@gmail.com

Reflectionof of legislation changing by the licensing subindex

Abstract

Purpose – to evaluate the impact of licensing reforms on the licensing sub-index

Methodology - systematic approach and comparative analysis

Result - The simplicity of licensing minimizes government interference in the economy and improves the country's economy, affects the business environment in the country, encourages entrepreneurs to work better, prevents unofficial payments, which positively affects economic growth.

Key words - *liberalization, licensing, The Index of Leftness (Rightness) of Economy, Licensing Sub-Index, legislation.*

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant №EİF-KEPTL -2-2015-1(25)-56/49/5-M-23

Daxil olub: 07. 05.2017

Rəy verib: AMEA İqtisadiyyat Institutunun "*İqtisadiyyatın dövlət tənzimlənməsinin metodoloji və ekonometrik problemləri"* şöbəsinin əməkdaşı i.ü.f.d. *Allahverdiyeva L. Ə.*